

**Bu gün həyata keçirilən uğurlu inkişaf strategiyasının əsas tərkib hissələrindən biri Azərbaycanı müasir dünya standartlarına uyğun, yüksək infrastruktur təminatına malik dövlətə çevirməkdən ibarətdir. Uğurlu iqtisadi siyasət ölkəmizin qüdrətini daha da yüksəltməklə yanaşı, regionların inkişafına da əhəmiyyətli şəkildə təsir göstərir. Bu istiqamətdə reallaşdırılan tədbirlər, görülən işlər davamlı xarakter daşıyır.**

# Regionların sosial-iqtisadi inkişafı dövlət siyasətinin mühüm tərkib hissəsidir

## Bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir

2003-cü ildə keçirilən prezident seçkilərində xalqın böyük əksəriyyətinin dəstəyini qazanaraq Prezident seçilən cənab İlham Əliyev ilk gündən ölkədə iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya prioritet məsələ kimi qoydu. Prezident İlham Əliyevin dəfələrlə səsləndirdiyi kimi, Azərbaycan iqtisadiyyatının neftdən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi və iqtisadi imkanların daha da artırılması ölkəmiz üçün prioritet istiqamətdir. Cənab İlham Əliyev iqtisadiyyatın neft gəlirlərindən asılılığını yolverilməz hesab etməklə yanaşı, qeyri-neft sektorunun daha çox respublikanın bölgələrində inkişaf etdirilməsi yolu ilə sosial və regional tarazlığın qorunmasına çalışmışdır. Bu istiqamətdə bir çox işlər görülmüş və proqramlar icra olunmuşdur. Son 18 ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı 3 Dövlət Proqramının icrası və dördüncünün icrasının davam etdirilməsi də görülən işlərin bir hissəsidir.

Ulu öndər Heydər Əliyevin banisi olduğu müasir dövlətimiz bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edir və qüdrətlənir. Düşünülmüş, qətiyyətli və uzaqgörən siyasət nəticəsində ölkəmiz ötən illərdə mühüm siyasi, iqtisadi, sosial uğurlara nail olub. Bu gün respublikamız sabit, davamlı və dayanıqlı inkişafa malik ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınır. Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, sabit və qüdrətli dövləti məhz Azərbaycandır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət, ölkəmizi dünyanın ən sürətlə inkişaf edən dövlətinə çevirmişdir. Bu istiqamətdə əldə olunan uğurlar Azərbaycanın beynəlxalq səviyyədə mövqeyini əhəmiyyətli dərəcədə gücləndirməkdədir. Məhz bunun nəticəsidir ki, ölkəmiz regionun lideri, dünyanın isə söz sahibi olan dövlətlərindəndir. Azərbaycan dünya miqyasında stabil, dayanıqlı inkişaf dinamikasına malik ölkə kimi tanınmış, dövlətlərin ən yüksək beynəlxalq iqtisadi meyarları təyin edən qurumlarının reytinqində yüksək mövqelər tutmuşdur. Belə ki, beynəlxalq donorların və investorların ölkəmizə marağı xeyli artmışdır.

Bu gün Azərbaycanda regionların inkişafı Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir və dövlət başçısının regionlara səfərləri artıq ənənə halını alıb. Dövlət başçısının hər səfərində regionlarda görülən işlər qiymətləndirilir, ayrı-ayrı iqtisadi zonalar üzrə perspektivlər müəyyənləşdirilir və inkişafın davam etdirilməsi üçün yeni tədbirlər həyata keçirilir. Dünya birliyinə sürətlə inteqrasiya olunaraq demokratik inkişaf yolunda atdığı ardıcıl addımlarla regionda böyük nüfuz sahibinə çevrilən müstəqil Azərbaycanın qısa zamanda əldə etdiyi böyük nailiyyətlər, ilk növbədə hər bir vətəndaşın mənafeyinə xidmət edən təkmil sosial-iqtisadi inkişaf strategiyasına əsaslanır. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi islahatları bütün sahələrdə inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ötən müddət ərzində regionların sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlamış, bu istiqamətdə kompleks tədbirlər həyata keçirmişdir. "Bizim iş üslubumuz belədir: bölgələrdə problemi müəyyən etmək, onun həlli üçün lazım olan yolları müəyyən etmək, axtarmaq və tədbirlər planı hazırlamaq. Bunu etmək üçün artıq bizim maliyyə imkanlarımız da var", - deyən dövlət başçısının həyata keçirdiyi uğurlu strategiya nəticəsində Azərbaycan qısa müddətdə dünyanın sürətlə inkişaf edən, bütün sahələrdə yeniləşən dövlətlərindən birinə çevrilmişdir. Artıq uzun illərdir ki, regionların inkişafı ilə bağlı xüsusi dövlət proqramları həyata keçirilir və bu proqramlar çərçivəsində regionlarımız abadlaşır, yeni kommunikasiya yaranır, yeni yollar çəkilir, yeni infrastruktur formalaşdırılır, məktəblər, xəstəxanalar, idman kompleksləri və digər sosial-mədəni obyektlər tikilir. Bütün bunlar regionlarımızın simasını dəyişir. Regionlarımızda yerli xüsusiyyətlər nəzərə alınmaqla böyük layihələr həyata keçirilir. Bu gün ölkəmizə valyuta gətirəcək bir sıra kənd təsərrüfatı sahələri var ki, onlar ixraca görə əhəmiyyətlidir. Ona görə də Prezident İlham Əliyev bu sahələrin inkişafına xüsusi diqqət ayırır və hər dəfə regionlardan qayıtdıqdan sonra təsbit etdiyi sahələr üzrə maliyyələşdirmə aparır və bu da bölgələrin inkişafına təkan verir.

Ümumilikdə, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət proqramları onu göstərir ki, Prezident İlham Əliyevin iqtisadi siyasəti dərin elmi-nəzəri əsaslara, praktik reallığa əsaslanmaqla, respublikanın bütün sahələrdə davamlı inkişafına xidmət edir. Əldə olunan uğurlarla kifayətlənməyən hökumət regionların inkişafı istiqamətində bundan sonra da ardıcıl və səmərəli tədbirlər sistemi həyata keçirmək əzmindədir.

Təbii ki, ölkə başçımızın müdrik rəhbərliyi ilə qarşıda bizi böyük uğurlar gözləyir. Cari il üçün nəzərdə tutulan tədbirlər Azərbaycanın uzaq gələcək üçün hədəflədiyi inkişaf zirvələri baxımından həm möhkəm baza, həm də başlanğıc olacaq.

M.MİRZƏ,
"Respublika".